**NƏZMİYYƏ HİCRAN**

# HARAYLAYIR ANA TORPAQ

**“Elm və təhsil”**
**Bakı - 2011**

“Aşıq Şəmşir” Mədəniyyət Ocağı
İctimai Birliyi

***Kitab “Aşıq Şəmşir” Mədəniyyət Ocağı İctimai Birliyinin sponsorluğu ilə nəşr edilir***

Redaktory вя
юн сюзцн мцяллифи: Адил Ъямил

*Şair-türkoloq, fəlsəfə doktoru,*
*Aytmatov Akademiyasının*
*fəxri akademiki*

Nəzmiyyə Hicran. Haraylayır Ana torpaq.
Bakı, **“Elm və təhsil”, 2011. 116 səh.**

«Щарайлайыр Ана торпаг» Нязмиййя Щиъранын охуъуларла икинъи эюрцшцдцр. Йаралы йурд йерляримизя шаир-вятяндаш мцнасибяти, торпаг нисэили, дидярэин ел-оба дярди китабда топланан яксяр шеирлярин лейтмотивини тяшкил едир.

Мцяллифин диэяр мювзуларда гялямя алдыьы – хцсусян мярдлик, ъясарят, дюнмязлик вя щягиги мящяббят дуйьулары ашылайан шеирляр дя марагла вя дцшцндцрцъцдцр. Инаныраг ки, Н.Щиъранын бу китабы шеирсевярлярин диггятини чякяъякдир.

$$\frac{4702000000}{N098-2011}$$ грифли няшр

© «Елм вя тящсил», 2011

## HƏYATI MÜŞAHİDƏLƏRİN POETİK OVQATI

Zaman-zaman söz sənətinə müxtəlif elmi yanaşmalar olub, ədəbiyyata müxtəlif təriflər verilib. Son qənaət belə olub ki, ədəbiyyat ruhun ifadəsidir.

Əlbəttə, mənə görə bu qənaət söz sənətinin estetik mahiyyətini bütövlükdə dəyərləndirmək baxımından olduqca dürüst və mükəmməldir. Poeziya ədəbi janrlar içərisində tarixən öz aktuallığını saxlamaq baxımından "ruhun ifadəsinə" daha yaxındır, desəm yanılmaram. Xalqımızın qədimdəki sayaçı sözlərindən, oxşama, layla və bayatılardan günümüzün sərbəst, modern şeirinə

qədər yol gələn poeziya hələ də ruhumuzun ifadəçisidir.

Şeirlərini xüsusi maraqla oxuduğum gənc şair Nəzmiyyə Hicran öz ruhunu ifadə etmək istedadı ilə mənim diqqətimi çəkdi. Onun bədii həqiqətə çevrilən real, həyati müşahidələri insanı düşündürür, duyğulandırır. “Bir elan” şeirində söhbət şəhərdəki kafelərdən birinə yapışdırılmış əcaib elandan gedir. Elanın məzmunu belədir: “On səkkiz yaşında ofisiant qız tələb olunur”. Müəllif bu bildirişin arxasında gizlənən insanı şair emosiyası və vətəndaş, yurddaş cəsarəti ilə ifşa hədəfinə çevirir:

***Kim idi bu elanın***
***ata-anası?!***
***Görəsən onun vardımı***
***on səkkiz yaşlı***
***qız balası?!***

Sözügedən şeirin sonluğuna yaxınlaşanda əvvəlki qəzəb və nifrət duyğusu sevinclə əvəzlənir:

***Neçə aydır asılıbdı***
***Bu özünü gözlərimdən***
***asan elan.***
***Sevindim ki, bu şəhərdə tapılmadı***
***aylarınan***
***axtarılan...***

Nəzmiyyənin şeirlərindəki özünəməxsusluq, yeni fikir, yeni söz axtarışı, məlum stereotiplərdən qaçmaq, mövcud qəlibləri sındırmaq cəhdi bənzərsiz bir ovqatın təqdimi ilə sonuclanır. "Böyümədim" adlı şeirində müəllif sözün gücü ilə özünün portretini yaradır. Bu şeiri bioqrafik etüd kimi də qəbul etmək olar:

***...Qızım oyuncaqlarıyla***
***qırmızı rəng gətirdi***
***soyuq, solğun,***
***quzulamış əllərimə.***

***Qəfəs ömrü yaşatdı-***
***bu həyata gəlməməyim***
***Bir ömürə gəlməyimə.***

Şairin qənaətinə görə bir ömrə gəlmək hələ bu həyata gəlmək deyil. Geniş anlamda həyat ayrı-ayrı, fərdi ömürlərin toplumundan ibarətdir. Və bu həyatın fərdlər tərəfindən eyni şəkildə qəbulu, qavramı mümkünsüzdür. Hər kəs öz yaşam tərzini, əqidə, məslək və məfkurəsini özü təyin etməyə çalışır. Nəhayətdə "bir ömürə gələnlərlə" "bu həyata gələ bilməyənlər" arasındakı sosial-mənəvi uçurumlar meydana çıxır...

Şeirlərindən görünür ki, N. Hicran yurdsevər, torpaqsevər bir insandır. 1993-cü ildə işğal olunmuş ana yurdu Kəlbəcər onun yaddaşından və ürəyindən silinməyən əbədi və əzəli mövzusudur. "Ağdaban ağrıları" şeirində o, bir tay əsgər çəkməsini predmetə çevirməklə baş vermiş qətliamın mənzərəsini belə yaradır:

***...Sədrəddindən nişanə***
***qalmışdı çəkməsinin biri.***
***Kəsilən başlardan,***
***tökülən qanlardan,***
***harayı heç yerə***
***çatmayan insanlardan***
***çox şey danışırdı***
***ölümdən öndə gedən***
***əsgər çəkməsinin dili...***

Bilənlər bilir ki, 1992-ci ilin aprel ayında (Kəlbəcərin işğalından bir il öncə) erməni quldurları qüdrətli saz-söz sənətkarı Dədə Şəmşirin doğma kəndi Ağdabanda əsrin böyük qətliamlarından birini törətməklə özlərinin vəhşi və vandalist obrazlarını yaratdılar. Ustad sənətkarın öz əlləri ilə tikdiyi ev alova büründü, qan qohumları tonqala atılıb diri-diri yandırıldı. Bu amansız işgəncələrdən sonra Ağdaban qan gölündə üzdü. Nəzmiyyə bu şeirdə həmin fəci günlərin mənzərəsini verməyə çalışır və buna nail

olur. Dədə Şəmşirə həsr etdiyi “Ziyarətə qəbrin uzaq” şeirində isə o, düşüncələrini belə ümumiləşdirir:

***Zülmə düşən haqdan ayrı...***
***Başımız papaqdan ayrı,***
***Kökümüz torpaqdan ayrı,***
***Pöhrələnmədik, Dədə.***

Nəzmiyyənin yurd ağrılı, torpaq niskilli şeirlərində ciddi bir vətəndaş çağırışı var. Bu çağırış onun belə şeirlərinin poetik intonasiyasını və leytmotivini təşkil edir:

***Yaraşırmı bu millətə***
***Qara geyə ağ gəmidə!***
***Qız-gəlini ermənıyə***
***Oğul doğa zirzəmidə!***

(“Haraylayır Ana torpaq”)

Müəllifin patetik misraları bizləri həyəcanlandırır, mürgüləyən dərdlərimiz yuxudan ayılır, bir anlıq da olsa gözümüzün qabağına cahanşümul qələbələrlə süslənmiş tarixi keçmişimiz, qəhrəman sərkərdələrimiz, igid oğullarımız gəlir. Və düşünürük ki, biz də onların gen daşıyıcıları deyilikmi?! Elə isə bu üzüntülər "yaraşırmı bu millətə?!"

Nəzmiyyə ictimai məzmunlu poetik nümunələri ilə bərabər təbiət, məhəbbət mözusunda qələmə aldığı, eyni zamanda, ata-anaya, övlada, dost-doğma insanlara həsr etdiyi şeirləri ilə də oxucunu düşünüb-duyğulandırmağa vadar edir.

Müəllif uşaqlıq illərini keçirdiyi, qoynunda boya-başa çatdığı doğma kəndini də unutmur, daha doğrusu, unuda bilmir:

***Düşdü məndən uzağa***
***Xəyalımdan ötən kənd.***
***Yaddaşımdan itmədi***
***Yolu, izi itən kənd.***

("Xəyalımdan ötən kənd")

Bu həmin kənd, həmin torpaqdır ki, Nəzmiyyə o məkanda bacısının və atasının məzarlarını qoyub gəlib. Ona görə də "Torpaq" şeirində torpağa yanaşma tamamilə yeni bir düşüncənin məhsuludur:

***Hərdən məzar bilib ağlaram səni,***
***Hərdən çiçək bilib qoxlaram səni.***
***Gözümün üstündə saxlaram səni,***
***Necə tapdalayım mən səni, torpaq?!***

Torpağın mahiyyətinə bu şeirdə tamamilə yeni dəyər verən müəllif "Atamı saxlayan ata evimsən., Necə tapdalayım mən səni torpaq" deməklə dünyadan vaxtsız getmiş atasına övlad sevgisini ifadə edir- həm də obrazlı şəkildə... Ümumiyyətlə, Nəzmiyyə kimdən, nədən yazırsa o yerdə onun ya məhəbbəti var, ya da nifrəti. Şəxsiyyətindən, ciddi xarakterindən irəli gələn bu xislət onun bütün yaradıcılığını tənzimləyir. Necə deyərlər, onun özü kimi şeirləri də bir sifətlidir. Və

cavan şair bütün olmuşları, olacaqları alın yazısı kimi qəbul edərək öz taleyi ilə barışmaq həddinə gəlir:

***Oduna əriyir şəm pərvanənin,***
***Əyir qamətini qəm divanənin.***
***Başına nə gəlsə mən biçarənin***
***Deyirəm taledi, barışıb ölləm.***
(“Deyirəm taledi”)

N. Hicranın şeirlərində folklordan, xalq ədəbiyyatından gələn incə bir lirizm, şirəli bir dil var. Bu da maraqlıdır ki, müəllif ulu, qədim qaynaqlardan qidalanmaqla bərabər çağdaş poeziyanın tələblərinə və şərtlərinə də ciddi əməl edir. Əslində onun poetik dünyasında ənənəvi şeirlə modern şeir, heca şeiri ilə sərbəst şeir eyni ampulada özünə yer ala bilir.

Mən Nəzmiyyənin şeirlərini oxuyandan sonra qənaətim bu oldu ki, ədəbiyyatımıza öz ruhunu ifadə etmək əzmi ilə gələn bu cavan şairin

şeirləri oxucular tərəfindən tezliklə seviləcəkdir. Buna şübhə etmədən N. Hicrana söz sənətinin labirintli yollarında yeni-yeni uğurlar diləyirəm.

**Adil CƏMİL**

# Həsrətin

# son mənzili



## Nə vaxtdı

Su üzündə köpük kimi qalmışam,
Çırpılıram dağa-daşa nə vaxtdı.
Məskənimi, yurd yerimi görmürəm
Yazdan-yaza, qışdan-qışa nə vaxtdı.

Xəyalımda o dağlara köçürəm,
Sərin çeşmə, buz bulaqdan içirəm.
Aman, Allah, Kəlbəcərsiz keçirəm
İldən-ilə, yaşdan-yaşa nə vaxtdı.

Mən taleyin sınağında qalmışam,
O torpağın qınağında qalmışam.
Göz yaşıyam- yanağımda qalmışam,
Qəm-qüssəyəm başdan-başa nə vaxtdı.

## Haraylayır Ana torpaq

Yaraşırmı bu millətə
Torpağına alov düşə.
Yaraşırmı bu millətə
Qız-gəlini girov düşə.

Yaraşırmı bu millətə
Güllələnə körpələri.
Aman, Allah, bu dünyada
Gözümüz gördü nələri...

Yaraşırmı bu millətə
Dərd içində itə qala.
Ramilin əli qandallı,
Toyu məşəqqətə qala.

Yaraşırmı bu millətə
Qara geyə ağ gəmidə.
Qız-gəlini erməniyə
Oğul doğa zirzəmidə.

Gecə-gündüz haraylayır
Öz oğlunu Ana torpaq.
Daha bəsdi yuxuladın-
Azərbaycan, ayağa qalx!

# Ziyarətə qəbrin uzaq

***(Dədə Şəmşirin ölməz xatirəsinə)***

Bu həyatda olduq naşı-
Səhv elədik addımbaşı.
Sözlərindən yaxşı-yaxşı
Bəhrələnmədik, Dədə.

Ziyarətə qəbrin uzaq,
Sinəmizdə qalıb bu dağ.
Kəsilərək budaq-budaq
Dəhrələnmədik, Dədə.

Zülmə düşən haqdan ayrı...
Başımız papaqdan ayrı,
Kökümüz torpaqdan ayrı,
Pöhrələnmədik, Dədə.

# Ağdaban ağrıları

Bir anın içində,
Çox qısa
zamanın içində,
qanlı qətliam günləri
diri-diri yandırıldı
Ağdabanın sakinləri.
Sədrəddindən nişanə
qalmışdı çəkməsinin biri.
Kəsilən başlardan,
tökülən qanlardan,
harayı heç yerə
çatmayan
insanlardan
çox şey danışırdı
ölümdən öndə gedən
əsgər çəkməsinin
dili...

# Vaxtın ölçüsü

Vaxtı tələsdirirəm
Göz qoyub əqrəblərə.
Günəş göydə gəzinir
Qapılıram hisslərə.

Bulud sanki səmada
Gizli bir sirr gəzdirir.
Şimşəyin şölələri
Pəncərəmi əsdirir.

Hər şey gözəlləşmədə,
Keçmiş küsüb, inciyir
Çatdın mənzil başına
Saat burda ləngiyir...

## Böyümədim

Uşaqlıqdan keçdi yaşım,
böyümədim...
Çılğınlaşdım günü-gündən
qəm-kədərdən.
Körpə kimi
ağlamağa başladım
tez-tez, hərdən.
Qızım mənə sirdaş olub
leysan tökdü
gözlərindən.
Acizləşdim balamın
qədərsiz
kədərindən,
Üzüldüm zaman atımın
laxlayan üzəngisindən.
Adamlar buqələmuna
bənzədilər
gözlərimdə-

dəyişkən sifətləri,
yalançı sözləriylə.
Bu həyatda naşı oldum-
tanımadım adamları
mən
nə isə...
Qızım oyuncaqlarıyla
qırmızı rəng gətirdi
soyuq, solğun,
quzulamış əllərimə.
Qəfəs ömrü yaşatdı-
bu həyata gəlməməyim,
bir ömürə gəlməyimə.

# Torpaq

Atam üz qoyubdu qoynuna sənin,
Necə tapdalayım mən səni, torpaq?
Sığındım, sarıldım boynuna sənin,
Necə tapdalayım mən səni, torpaq?

Hərdən məzar bilib ağlaram səni,
Hərdən çiçək bilib qoxlaram səni,
Gözümün üstündə saxlaram səni,
Necə tapdalayım mən səni, torpaq?

Sən məni kövrəldən bir sarı simsən,
Gəlibsə dilimə qoy deyim kimsən-
Atamı saxlayan ata evimsən,
Necə tapdalayım mən səni, torpaq?

Bilmirəm gerçəksən, yoxsa yalansan,
Üstü boşalanda altı dolansan,
Nə vaxtsa mənə də qismət olansan,
Necə tapdalayım mən səni, torpaq?

## Kəlbəcəri düşünərkən

Gözlərimin kökü sarı,
Ağlayıram zarı-zarı.
Unutdum əhdi-ilqarı-
Mənə bala demə, vətən.

Ayıma bax, ilimə bax,
Yurdsuz qalan elimə bax,
Külə dönmüş dilimə bax,
Mənə bala demə, vətən.

Gəlib yaşıl bucağına,
İsinmədim ocağına,
Atılmadım qucağına,
Mənə bala demə, vətən.

Həsrət qaldım yaz-qışına,
Dolanmadım heç başına.
Çevrilmədim yurd daşına,
Mənə bala demə, vətən.

## Xəyalımdan ötən kənd

Körpəliyim keçən kənd-
Ürəyim su içən kənd...
Dostlar-doğma, mehriban,
Qohumlar qol-qanaddı.
Böyrü tikan böyürtgən
əllərimi qanatdı.
Günəşi görüm deyə
O kənd məni yaratdı.
... bir gün gəldik şəhərə-
Bu da belə həyatdı...
Düşdü məndən uzağa
Xəyalımdan ötən kənd.
Yaddaşımdan itmədi
Yolu, izi itən kənd.

## Getdi

Alışıb yandırdı su ciyərimi,
Qanqallar yamacı bürüdü, getdi.
Bir buz parçasına dönüb ürəyim
Dağların başında əridi getdi.

Qaynar İstisuyum, ləl Kəlbəcərim,
Kimsəsizə əsa-əl Kəlbəcərim,
Qalalı-qartallı nər Kəlbəcərim
Lal oldu, dinmədi, kiridi getdi...

Bahar çiçəkləri qışa büründü,
İlan qabıq qoydu, adam süründü,
Atamın, bacımın qəbri küründü,
Zaman məzarları kürüdü, getdi.

## Xoş xəbər intizarında

Qürurlu Dəlidağ, Qala Kəlbəcər
Bəs niyə özünü öyməyir, Allah!
Xan tərtər, Qanlı göl, Murov, Keytidağ
Hicranı, həsrəti əyməyir, Allah!

Cənnət İstisuyum- çiçəkli dağım,
Qalayçım, Palıdlım- yaşıl yaylağım.
Al qana bükülən fəryadım, ahım,
Göylərin üzünə dəyməyir, Allah!

Ayrılıq, intizar dostum, sirdaşım,
Qalıb əsirlikdə neçə yurddaşım.
Kəlbəcər deyəndə axır göz yaşım,
Xoş xəbər qapımı döyməyir, Allah!

## Bir ovuc torpaq həsrəti

Ümidim son nəfəsdədir,
Gümanımın son anıdı.
Toxunmayın siz qəlbimə-
Ürəyim arı şanıdı.

Qaçqın düşən elim-obam
Qürurunu saxlayıbdı.
Dərd dumanı, qəm çiskini
Yollarını bağlayıbdı.

Gördüklərim gerçəkdimi-
Dünya nağıl, həyat-röya.
Bir ovuc yurd torpağı yox
Gedənlər gözünə qoya.

## Qarabağı düşünərkən

Qarabağ deyəndə tutulur dilim,
Hərə bir moizə oxuyub gedir.
Çadırda, çöllərdə yaşayan elim
İlləri illərə toxuyub gedir.

Sən demə doğmaca yurd-yuvasından
Didərgin ellərin karvanı varmış.
Xocalı düzündə töküləndə qan
Körpənin, qocanın qurbanı varmış.

“Böyük Ermənistan” xülyasına bax,
Bir körpə vücudu qədər deyilmiş.
Bu xəbis erməni dünyasına bax-
Çəkdiyi “əzablar” hədər deyilmiş.

## Yurd həsrətli anama

Dərd sinəni dağlayır,
Üzün gülür üzümə.
Ana, için ağlayır,
Gözün gülür gözümə.

Bir bala itirmisən,
Məsum, əsmər bənizli.
Ziyarət edəcəyin
Dağmı, düzmü, dənizmi?

Üzülürsən, anacan,
Dərdin, ahın- Kəlbəcər.
Gündoğan, günbatanın,
Qibləgahın- Kəlbəcər.

Gördüyün yuxuları
Danışırsan sən suya.
Necə çatdırım səni
Yurd həsrətli arzuya?!

# Ana

Nə qədər böyükmüş qüdrətin sənin,
Özüm ana olub anladım, ana!
Saçına ələnən ağappaq dəni
Görüb, gözlərimi danladım, ana!

Bədənim buz tutub hərdən üşüdü,
Atasız yaş gəldi yaşımın üstə.
Bu alın yazısı, tale işidi,
Nə yaxşı anam var başımın üstdə.

Dünyanın işığı zülmətlə qoşa,
İllər dəyirman tək üyütdü məni.
Cənə canım qurban, ana, ay ana,
Sənin nəvazişin böyütdü məni.

# Xocalı

Özü boyda köksüm üstə yaradı,
Ürəyimi dağlayacaq Xocalı.
Vəhşilərdən miras qalan vəhşəti
Yadımızda saxlayacaq Xocalı.

Həsrət çəkdim, dərd yüyürdü üstümə,
Alovlandım, qızınmadım istimə.
Aman, Tanrı, durma mənim qəsdimə,
Gözlərimlə ağlayacaq Xocalı.

Ata-ana ətəyindən üzülən,
Sərt şaxtanın qılıncıyla kəsilən
Körpə bala gözlərindən süzülən
Al qanımdı, çağlayacaq Xocalı.

## Gəl gedək

Dərd əlindən qara günük, ay elli,
Baş götürüb uzaqlara gəl gedək.
Qaçqın, köçkün, didərginik, ay elli,
Yurdumuza- o dağlara gəl gedək.

Üzüm güldü, içimdə qəm çağladı,
Acı hicran daim məni haqladı.
Bu ağrılar ürəyimi dağladı,
Həsrət çəkən bulaqlara gəl gedək.

Yağıların caynağında yuvamız,
Talan olub, viran qalıb obamız.
Yurd yerində söndürülüb sobamız,
Odu sönmüş ocaqlara gəl gedək.

## Deyəsən

Bu dünyanın get-gəlinə mat qalıb,
Gülə-gülə ağlayıram deyəsən.
Qəm-kədəri gözlərimə iz salıb,
Misra-misra çağlayıram deyəsən.

Zəmanənin qoç buynuzlu başıyla,
Dünyamızın başa dəyən daşıyla,
Gözlərimin alov dilli yaşıyla,
Ürəyimi dağlayıram deyəsən.

Mən Hicranam-ayrılıq var adımda,
Dərd alışar, qəm əriyər odumda.
Gecə-gündüz yaddaşımda, yadımda
Yurd yerimi saxlayıram deyəsən.

## Qəlbi talan kimisən

Ağzını açıb dinmə,
Düşünmə söz sənindi.
Dilin deyən o sözlər
Sənin yox, özgənindi.

Saxta-saxta danışmaq
Səndə çoxdan var imiş.
Ürəkaçmaz sözlərin
Sifətinə ar imiş.

Qəlbi talan kimisən
Yalanın qucağında.
Qalmısan yer üzünün
Bir kiçik bucağında.

# Dağların

İstəyirəm qonaq gəlim, dincəlim
Gül-çiçəkli qucağında dağların.
Bənövşədən ibrət alım, incəlim
Ətir saçan bucağında dağların.

Ürək dinə, danışmayan dil olam,
Fəsillərdə dəyişməyən il olam,
Kəklikotu, zirə olam, hil olam
Hər daşında, torpağında dağların.

Hicran, burda bulud kimi dolaydın,
Göy çəməndə xəyallara dalaydın,
Nə olaydı, qurumayıb qalaydın
Yağış yuyan yarpağında dağların.

# Xoşbəxt ailənin sağlam faciəsi

Qəlbində yurd həsrəti,
Gözlərində kədər-qəm,
“Böyük yataqxana” otaqları,
orada məskunlaşan
köçkünlər və
yenicə dünyaya gələn körpələr.
Böyüklərin sifətindən
süzülən xəcalətin
kölgəsi.
Bu kölgənin irsən körpələrin
göz didəsinə keçməsi,
göydələn yataqxanalarda
xoşbəxt ailənin
sağlam faciəsi...

## Yurdsuz, yuvasız canım

İlahi, başımıza
Nələr gəldi, gör nələr!
Dünyanın sonudurmu-
Güllələndi körpələr?!

Hər yerdə məzlum insan
Zülmə tabedir hələ.
Ruh məndən çıxıb, ana,
Canıma çətin gələ.

Şəhidləşdi soy-köküm,
Dəfn elədim gözümdə.
O gündən qabalaşdım
Söhbətimdə, sözümdə.

Düşmənə nifrətimdən
İçim qəhərlənibdi.
Əlim gəlmir yazmağa,
Dilim zəhərlənibdi.

Könlüm həsrət odası,
Hicran durub qəsdinə.
Yurdsuz-yuvasız canım,
Günəş düşməz üstünə.

## Nə var ki

Küsgün gedən günləri
Ağlamağa nə var ki.
Gül tək kövrək ürəyi
Dağlamağa nə var ki.

Dünya tutqun çən üzü,
Həyat dərdin dənizi.
Ömrüm-günüm qəm izi-
Yoxlamağa nə var ki.

Nə suyu var, nə dəni-
Sərçə sevir vətəni...
Düşünməyin: gedəni
Saxlamağa nə var ki.

## Zaman

Yaşı çoxdur- deyil naşı,
Qum kimi üyüdür daşı.
Kimdir yaman, kimdir yaxşı,
Fərqini sezməyir zaman.

Ya Altayda, ya da Çində
Bu qiyafə, bu biçimdə.
Sanki ölüb öz içində-
Tərpənib əsməyir zaman.

Göstərəndə boz üzünü
Qırar insanın dizini.
Gecə-gündüz hey özünü
Görməkdən bezməyir zaman.

## Sarı gül

Sevilmədin, sevmədin,
Nə tez soldun, sarı gül.
Yoxsa vaxtsız saraldın
Gözləməkdən yarı, gül.

Eldə bir qız qarıdı-
Üzü sənə sarıdı.
Yaranı kim sarıdı,
Yarı otsan, yarı gül.

Gül açar yazda, yayda-
Təbiətdə bu- qayda...
Ağlamaqdan nə fayda,
Gün çıxanda barı gül.
Sarı gül, ay sarı gül!

# Bu ağrılar içində

Zəmanə üz çevirdi,
Bu yollarda yanıldım.
Köçkün olduğum üçün
Qohumluqdan danıldım.

Yurd-yuvama ələndi
Gözümdən yağan yağış.
Kədərin tişəsiylə
Ürəyim naxış-naxış.

Bu ağrılar içində
Sındı ipək qanadım.
Amma sındırılmadı
Mənim polad inadım.

## Al canımı, ölüm, Allah

Yandı yurdum, yandı yuvam,
İtgin düşdü elim, Allah!
Parçalandı Azərbaycan,
Külə döndü dilim, Allah!

Barışıb qismətim kimi,
Boylanıram yetim kimi.
Bu ölüm, bu itim kimi,
Dərd varmış nə bilim, Allah!

Qəm gözümə enib yenə,
Kövrəlirəm dönə-dönə.
Qoyma məni qara günə,
Al canımı, ölüm, Allah!

## Göydən asılı canım

İçimdən odlanmışam,
Sönən deyiləm daha.
Nədən həsrət qalmışam,
Allah, mən Qarabağa?!

Mən o yurdun balası-
Torpağıma bağlıyam.
Məzarım da qalmadı
Gedib üstdə ağlayam.

Bu mənim alın yazım,-
Gərək alışım, yanım.
Özünə yer tapmayır
Göydən asılı canım.

## Bakılı qız

***M. F. Axundov adına MK-nın şöbə müdiri sevimli Zemfira xanım Əliyevaya***

Gözlərin bənzəyir Xəzərə,
Yerişin-duruşun
bir mənzərə –
Bakılı qız...

Təbəssümün ay parçası,
Yerin-yurdun
“Qız qalası”,
Bakılı qız...

Köndələn İçərişəhər-
Göz oxşayıb, könül açar.
Gündoğandan-günbatana
Baxışların işıq saçar,
Bakılı qız...

Mələksima, gözəl insan,
Ay üzünə baxıb gedir.
Billur bulaqların suyu
Ürəyindən axıb gedir.

# Adamı dərd dirildir

Gözlərimdən süzülüb,
İçimi qurudur dərd.
Yanağımı üşüdüb,
Canımı çürüdür dərd.

Əlim ələ yetməmiş
Qaldım dərdin əlində.
Bir bayatı çağırın
Mənə dərdin dilində.

Bu dərdin ağuşunda
Bircə günüm bir ildir.
Tanrı qoymur ölməyə-
Adamı dərd dirildir.

# Bir elan

“On səkkiz yaşında
ofisiant qız tələb olunur”...
... Dırnağın arasında
Çapalayırdı, çırpınırdı
Gənc qızın
    bakirə siması...
Kim idi bu elanın-
    Ata-anası?!
Görəsən onun vardımı
On səkkiz yaşlı
        qız balası?!
Yox! Yox!
Çıracağam bu elanı-
gücüm çatsa bağladacam
Bu kafeni, restoranı.

Neçə aydı asılıbdı
Bu özünü gözlərimdən
Asan elan.
Sevindim ki-
bu şəhərdə tapılmadı-
aylarınan
        axtarılan...

## Kəlbəcərə səmum küləkləri əsdi

***(Eyni adlı kitabın müəllifi Səbinə Zahiriyə)***

Həyətimiz boyunca əkilən
Qırmızı-narıncı qızılgüllər,
Pəncərəmizi dan yeri sökülməmiş
Döyəcləyən sərçələr-
Və 1993-cü il...
Güllələnən körpələr...
Əsir düşən nənələr, dədələr,
Dərisi soyulan,
tonqalda yandırılan cəsədlər...
Kitab vərəqlərində
Alov dilli iniltilər
sığındı sinəmə sanki...
Üşüdüm...
Qara yel yenidən silkələdi
barı tokülən ağacımın
barsız budaqlarını...

Şaxta  yenidən dondurdu varlığımı,
Sazaq vücudumu,
buz baltası kimi kəsib, doğradı,
olanlar...
  olmuşlar...
        olacaqlar
 Məni.
Ümidsizlik ümidlərimi kəsdi,
Axı niyə
Kəlbəcərə səmum küləkləri
                                        əsdi?

## Həsrətin son mənzili

***(Əmim Kamranın əziz xatirəsinə)***

Nənəm mənə
üç ad verdi-
Hicran...
    Həsrət...
        İntizar...
Hicranı mənə,
Həsrəti sənə,
İntizarı Kəlbəcərə
düşdü, Əmi!
Asıldın
Qəribliyin dar ağacından,
Ayrı düşdün qardaş-bacından,
Vətəndə Vətənsiz
öldün, Əmi!
Alın yazısı kimi
Yozdun

Taleyin qarğışını.
Son nəfəsdə vətən seçdin
Torpağın ağuşunu.
Qovuşmasan da
dağ-daşına
Qovuşdun haqq dünyasında
cavan qardaşına.
Çatanda son mənzilə
göz yaşını
sildin, Əmi.
Düşünüb qardaş qızını
Həsrətə,
Hicrana,
İntizara
güldün, Əmi...

# Salman

Qardaşımın ciyərparası,
Bacılarımın “atası”,
Qızımın “ana” babası-
                Salman.

Evimizin yaraşığı,
Gözlərimizin işığı,
Nihadın, Nicatın
Qatmaqarışığı-
        Salman...

Həsənimin, Fəridimin
Əzizi, sevimlisi.
Anam gəlsə bu dünyaya
Kimdi onun deyiklisi?-
        -Salman...

## Gülməkdən ölən ölü

Həmişəki nəqliyyat,
Həmən yol...
Həmən küçə...
Həmişəki mənzərə...
Ölüsünə başdaşı,
Xatirə abidəsi
Düzəltdirir hərə.
Kimisi qara mərmər,
Kimisi ağ...
Ölü torpağın altında
İmtahan verir-
dirilərdən sağlam-
əqli sağ...
... Sağlığında sayılmayana-
qapısı açılmayana-
ürəyi alınmayana
yas qurulur toyxanada.

Canı soyumamış ölü
indi gülməkdən ölür
qohumlara, yadlara.
Şeytan mollanı çaşdırır-
Yasin başlayır
Yanlış oxunmağa.
Ölü darıxmağa başlayır
Dirilərin arasında.
Belə adət var
Dünyanın harasında?!.

## Zahirən bənzədiyim adamlar

Dedilər şirindi dünya-
İnandım.
Dünyanın qucağına düşdüm-
Başqa planetin adamı
kimi...
Yaxınlaşmaq istədim
zahirən bənzədiyim
adamlara.
Yaxınlaşdım...
Doğmalaşdım...
Zaman bir qazanda
qaynatdı bizi.
Qarışmadım-
İncidilər...
Acıladılar,
yaxın bildiyim
adamlar məni.

Hərə düşündüyünü,
gördüyünü
yaşadı.
Dünyanı beş günlük
bilib...
Yaxşılardan
yaxşılığı
götürməyi
bacarmadılar...
yaşadı,
öldü adamlar...

## Söyüd ağacı

Dedilər ki, barsızdı,
Dedilər ki, arsızdı,
Həyət-bacaya, bağa
Dedilər yararsızdı.
Ayırdılar özündən
Qolunu-qanadını
Doğradılar incəlmiş
Əlini ayağını...
Həyətin bir küncündə
Çör-çöp ömrü yaşadı.
Güllər-çiçəklər ona
Məhəbbətlə yanaşdı-
Sarmaşığa sarılıb
Cansız söyüd
böyüdü.
Adamlar kölgəsində-
əylənib, dincələndə
gülərüz, barsız söyüd
öz "barıyla"
öyündü...

## Həyat sözünü deyir

Dünənki uşaq idik
Yamanca tez böyüdük...
Dillərimiz böyüdü,
əllərimiz böyüdü,
sənətimiz böyüdü,
şəhərimiz böyüdü.
Nə məktəbə gedirik,
nə də ki,
bağçadayıq...
Yollarımız ayrılıb
kəndlərimiz ayrılıb,
ünvanımız ayrılıb.
Hələ onu demirəm
saçlarımız ağarıb-
yanağımız allanıb,
ürəyimiz xallanıb,

adımızın üstündən
Təzə bir ad sallanıb.
Didərginik, qaçqınıq,
hərəmiz bir hallıyıq,
Yaman “qalmaqallıyıq”.
Ayları illər yeyir,
Həyat sözünü deyir,
Görmədim ondan doyan-
O, nağara çalandı,
Biz ortada oynayan.

## Bu həyat, bu yol sənin

Adını damla qoydum
Kəhriz olasan deyə.
Damla-damla böyüyüb
Dəniz olasan deyə.
Bu həyat bu yol sənin-
Şipşirin xəyal sənin.
Tut həyatın nəbzini,
Göstər məharətini.
Həyatın yollarına
Çıxmaq olur çətini.
Aciz olarsan düzü,
Qorxuram uda səni
Adam qiyafəsində
Adamlardan ibarət
Ac canavar sürüsü.
Ayağının üstündə
Möhkəmcə dayan, qızım-

Şirin yuxu yatsan da
Lap tezdən oyan, qızım.
... Saçına dən düşəndə
Qızın səndən küsəndə
Yadına mən düşəndə
Dənizə boylan, qızım.
Bayatım, laylam qızım.

## Lövhə

Sevib-əzizləyirdi
Torpaq yaz qoxusunu.
Qəlbində gəzdirirdi
Bənövşə arzusunu.

Ağaclar göyərirdi
Bahar sevdası ilə.
Baxıb rəqs eləyirdi
Lalələr kəpənəklə.

Əllərimdən üzülüb
Uzağa yeriyirdim.
Doğan günün rəngində
Şam kimi əriyirdim.

# Deyirəm taledi

Heç zaman qalmayır söz ürəyimdə-
Susub ölməkdənsə danışıb ölləm.
Yurdunu itirən yurddaşlarımın
Dərdinə-sərinə qarışıb ölləm.

Dalğalar qoynunda gəmisiz canım,
Məzarı, mənzili təmirsiz canım,
Dünyanı dolanan səmirsiz canım,
Çadırda, çöllərdə alışıb ölləm.

Oduna əriyir şəm pərvanənin,
Əyir qamətini qəm divanənin.
Başına nə gəlsə mən biçarənin
Deyirəm taledi, barışıb ölləm.

# Bir nadana

Özünü yekə tutma,
Bil ki, acığım gəlir.
Dərdimi görüb demə
Sənə yazığım gəlir.

İnsan cildinə girən
Adama yad olmuşam.
Günəşin övladıyam-
Göylərdə doğulmuşam.

Gündə min dəfə ölüb,
Min kərə dirilirsən.
Başa çıxmaq naminə
Ayağa sərilirsən.

## Payız lövhəsi

Yağış döyür meşəni,
Ağaclarmı ağlayır.
Tökülən yarpaqları
Gözlərim sığallayır.

Təbiət öz işində,
Külək çapır atını.
Bu xəzəllər artırır
Torpağın bir qatını.

# Ay dünyadan bixəbərim

Nə sevincə qane oldun,
Nə kədərə mane oldun.
Yel əsdirən nanə oldun,
Ay dünyadan bixəbərim.

Gün görməyib yaşadın da,
Ömür yükün daşıdın da.
Əlin qaldı daş altında,
Ay dünyadan bixəbərim.

Üzün güldü yaş içində,
Buza döndün daş içində,
Yaşamadın yaş içində,
Ay dünyadan bixəbərim.

## Tənha çiçək

Qara qaya üstündə,
Bitmisən nədən çiçək?
Sal qaya olub sənə
Yoxsa ki, vətən, çiçək?

Adam da yox yanımda
Bölə biləm dərdimi.
Bir də gördüm yox oldun,
Səni külək dərdimi?

Xəyal məni aparır-
Gah göydə, gah yerdəyəm.
Dilim yanır susundan-
Səhrayi-kəbirdəyəm.

## Gözdən itmək istəyirəm

Zaman çalıb külüngünü
Dünyanı dayaz eyləyir.
Yandırıb gülün kökünü
Yazını ayaz eyləyir.

Ötən ömrün ayı-ili,
Adamların şirin dili,
Çəmənin sarı bülbülü
Min cürə avaz eyləyir.

Gözdən itmək istəyirəm,
Səssiz ötmək istəyirəm.
Ölüb-getmək istəyirəm
Ölüm mənə naz eyləyir.

## Üzüdönük dünyaya

Ürəyim gözümün içinə,
Arzularım dilimə
Qondu həmişə.
Nədənsə heç inanmadım
Gözə-nəzərə.
Hər şeyin pisini də saf gördüm
Ürəyim kimi.
Koranə pisliklər
Üstümə dolu kimi yağdıqca,
Nəzərlər xəncər kimi
Sinəmi oyduqca,
Dilləri, könülləri
Şanapipik quyruğu kimi
Rəngarəng gördükcə,
İtdim susuz, kimsəsiz,
Pıtraqlı səhralarda.
Heç bilmədim haçan, necə,
Nə vaxt gəldim bu üzüdönük
dünyaya.

## Üzümə tutub gedirəm

Yaxşı, yaman
        nə varsa,
Əzir məni,
        üzünə gülürəm!
Düşüncəmi, duyğumu,
        təmiz ürəyimi
İlbəil, günbəgün
Ruhumun hərarətiylə
Şam kimi əridirəm.
Hərdən insan,
hərdən də
kölgə kimi
rast gəlirəm
özümə.
Dünyanın qəm üzünü
tutub gedirəm üzümə...

## “Həqiqət acı imiş...”

Həqiqət acı imiş, lap acı-
zəhər kimi,
Ona görə heç kim sevmirmiş onu
yəqin ki.
Yaxınlarımın yoxluğundan,
Özündən razı adamların
çoxluğundan
Və əlimdən zamana çıxıb
özümə qayıdan
sillənin ağırlığından
Hələ də özümə gələ bilmirəm.
Sanki diri-diri
ölü doğuldum anadan.
Başım qovğalı oldu
başdan-binadan.
Öyrəşmədim zamana, adamlara,
Yazığım gəldi həyatda mənim kimi
anadan doğulanlara...

## Pəncərə

Körpə ikən
çölü görmək
istəyim,
sürünə-sürünə yapışıb,
    baxmağım
gözəl mənzərə- pəncərə...
Gəncliyimin əzəli-
tələbəlik illərim,
sevinc, kədər, həsrəti
mən çəkdim,
    sən daşıdın
    gözlərimdən Xəzərə- pəncərə...
Heyhat, hər əziləndə
çərçivədən düz yerə
    əzabımı çəkənim,
Qoy əllərim qurusun,
tökdü hirsini sənə.
Neyləyim mən biçarə?...
Pəncərə, pəncərə, pəncərə...

## Payızdan başqa

Gül-çiçəkdən
Saflıq çəkmiş ürəyimə
Adlarını yazdım
üzü dönük dostlarımın.
Hər dəfə qarşılaşanda
yad baxışlarında
heç nə görmədim-
payızdan başqa...
bu gün isə
tam başqa idi,
Yazılarım “yoxlaması”ndan
keçən bir qələm dostumun
fikirləri məni sərt
külək kimi göyə qaldırıb,
Çox rahat, səmimi
yerə tulladı.

İtdim tozlu fikirlərinin
    ağuşunda...
Xəyalımdan yalnız
bir fikir keçdi:
Görəsən insanın nədən
özünü görən,
tanıyan gözü,
Ya da böyük “ön sözün”
arxasınca iməkləyən
əzilmiş sözlərinin
özü olduğu halda,
bu qədər böyük dayanırlar
gözümün qabağında?
Məndən nə qədər
uzaq olurlar
Mənə gəlib çatanda...

## Günəş elçisi

Ürəyi geniş, qəlbi təmənnasız,
dili saf,
içi təlatümlü dəniz,
coşqun çay,
istək, məhəbbət, təravət, həyat-
Hamısı gözlərinin içində-
bu boyda, bu biçimdə.
Sabah günəşi ilə-
təsadüfən
elə hey qarşıma çıxırsan.
Nurun üzümə düşür,
yenə gülümsəyirsən.
Ürəyimdə əksini,
özünü görməsən də
xəyalımda yenə də
günəş elçisi olub,

gözümdə yaşayırsan.
Adın-ünvanın kimi,
göylərdən yerə enən
mələyə oxşayırsan.

## Duzsuz şor

Duzsuz şora bənzədi
Dilində bitən
Ortabab vəzifən, “böyük səviyyən”
Özünü bu qısa ömürdə
niyə tapmadın görəsən?
Haqqı qovub
Haqsıza qol-qanad verdin
Sözdən söz düzəldib
Hərəyə bir ad verdin.
Yaşın altmışı haqladı,
İstəyin də çin oldu-
Yüz demişdin, min oldu.
Amma ki, bircə yerdə
Çəkilmədi heç adın.
Çox şeylərin olsa da
Özün adam olmadın.

## Doğuluram, boğuluram

Saf, təmiz, ülvi adamların
baxışında, gözlərində doğuluram.
Elə xoşbəxt oluram ki,
Qibtə də edirəm hərdən özümə.
İçi qətrandan qara
məkrli bəndələrin
Səsini eşitdikcə, dinlədikcə,
iç üzünü gördükcə
qaralan sifətimlə
Qürub yelləri əsən
tənha, kimsəsiz ürəyimdə
boğuluram.

## Mən şair deyiləm

Mən şair deyiləm
Amma şeir yazıram.
Hərdən səbrim daşanda,
Doğmalar yadlaşanda,
Tülkü şiri aldadıb
Arzusuna çatanda,
Yalanlar həqiqətin
Kölgəsində yatanda,
Haqq-ədalət qürubda
Günəş kimi batanda
Qələm çatır dadıma,
Vərəq yanır oduma.
Ürəyim kağız üstdə
Layla çalır bağrıma-
Yalnız o zaman gəlir
Şair olmaq ağlıma.

## Bəyənmədik heyvanları

Bəyənmədik heyvanları-
Ayıları, aslanları.
Bəyəndik özümüzü.
Aldatdıqca bir-birimizi
                    öyündük...
tale, tanrı qarşısında
ürək kimi döyündük,
bu ritmlə itirdik izimizi.
Görəsən
    hansı dünyada
        tapacağıq
            özümüzü...

## Yaşayırıq

Bol-bol verdik özgələrə,
Özümüzə qıymadıq
Sərvəti də, dövləti də!
Şükr elədik ilahiyə,
Gələnəcən biz qeyrətə
Qisas qaldı qiyamətə.
Girov qızlar haxçiləşdi,
Başımızdan papaq düşdü,
Zülmət elə yetişdi ki,
Qar üstünə qan töküldü
Gözümüzdən sabah düşdü.
Güllələr qana boyadı
uşağı da, cavanı da, qocanı da-
                    Xocalıda...
Çağrılmamış qonaq kimi
yaz da gəldi qara günə-
                    qar əridi...

İllər yudu bu qanı da
məzar itdi, gor əridi.
Ermənin caynağında inildiyən
Qarabağı alacağıq
deyə-deyə,
içimizi yeyə-yeyə
Yaşayırıq arsız-arsız,
gözümüzü döyə-döyə.

# Natarazlıq

Üzlə için natarazlığını
ikiüzlü adamların
dəyişkən sifətində
görüb, duyuram,
bezib, doyuram.
Sifətimi silləyib
qızartsam belə
onun ətdən olduğuna
inanmıram hələ...

## Dərdini danışan adam

Dərdini danışan adam,
Mən bilirəm dərdin dadın.
Ay qaynayıb-daşan adam,
Gözlərimdə quzuladın.

İtgin itgimə bənzəyir,
Tapıntımız oxşar deyil.
Biz uşaq olsaq da hələ
Yer kürəsi bir şar deyil.

Ölümün örpəyi düşüb,
Gözü baxır gözümüzə.
Vallah bu can köynəyindən
Dərdimiz yaxındır bizə.

## Uşaq olmağım gəlir

Oynayardım, qızıl qum
Üz-gözümə dolardı.
Gözlərimi yumardım,
Nələr, nələr olardı...

Açılan al gülləri
Sevərdim körpəlikdən.
Tikan batsa əlimə
Çiçəkdən küsərdim mən.

Həsrət çəkdiyim torpaq,
Uşaq olmağım gəlir.
Başın üstdə buluda
Dönüb, dolmağım gəlir.

# A dünya

Özümlə üz-üzə gələ bilmirəm,
Məni əllərimdən alan a dünya.
Nəmli gözlərimi silə bilmirəm,
Qəmi gözlərimə dolan a dünya.

Çıxdım pişvazına saf ürək kimi,
Gəldim hüzuruna mən dilək kimi,
Tumurcuq bağlayan gül-çiçək kimi,
Açmamış gözümdə solan a dünya.

Cavan ömrüm başdan-başa kədərmiş,
Nə faydası, ağlamağım hədərmiş.
Yarananlar demə gəldi-gedərmiş,
Özünə tək özü qalan a dünya.

## Yad tək düşürəm yada

Aylar, illər dolanır,
Saçlarıma dən düşür.
İynənin ulduzundan
Taleyimə gün düşür.

Əl-qolumu açıram,
Yollara nur saçıram,
Üzü yaza qaçıram,
Çəmənimə çən düşür.

Yad tək düşürəm yada,
Nələr var bu dünyada...
Həyat adlı röyada
Hamı məndən gen düşür.

## Qocalığa tələsmə

Bahar təravətlisən
Başdan-ayağa qədər.
Yox olsa təbəssümün
Bizi üzəcək kədər.

Gəncliyin nişanəsi
Tərk etməsin yaxanı.
Qocalığa tələsmə,
Nura bələ cahanı.

Nə sözlərin titrəsin,
Nə əyilsin qamətin.
Ömürlük tükənməsin
Qoy sevgin, məhəbbətin.

Kövrəlmə, kövrək insan,
Qəhər səni kəsməsin.
Başın üstdə taleyin
Tufanları əsməsin.

# Dünya

Yarıyolda buraxıb,
Gördün, götürmədin sən.
Bol-bol ata sevinci
Mənə ötürmədin sən.

Atıb qoynundan yerə
El içrə xar eylədin.
Niyə yerini, dünya,
Sən mənə dar eylədin.

Arzu, istək, diləklə
ƏlLənib yoğrulmuşam.
Kim deyər ki, anadan
Qəm ilə doğulmuşam.

# Qızıma

Bu qəmli taleyimə
Uğur gətirən qızım.
Sevinc, fərəh hissini
Mənə yetirən qızım.

Dünya elə gözəldi
Sənin gözəlliyində.
Hər bir kəlmən şirindi
Baldan şirin dilində.

Sən qol-qanad gətirdin
Arzuma, diləyimə.
Sevgin elə böyükdür
Sığışmır ürəyimə.

## Özünə bir nəzər sal

Başın girmiyən yerə
Bədənini soxursan.
Bataqlıqda boğulub,
Sudan quru çıxırsan.

Doğru olan sözlərə
Gözlərini döyürsən.
Yalanın qucağında
Boy atıb böyüyürsən.

Özünə bir nəzər sal-
Aldığın nəfəs yalan.
Ürəyimə qara xal,
Gözümə kölgə salan.

## Ulduz göylərdə olur

Nə qədər boylansan da
Ekrandan ya efirdən,
Ulduz göylərdə olur,
Sən ki, çıxmısan yerdən.

Çoxu çalıb, oxuyur,
Seviləni azdı-az.
Boğazı xırıldayan
Axı ulduz olamaz.

Pulunu az verəndə
Sponsorla tutaşma.
Göyərər sir-sifətin-
Göy cisminə sataşma.

Sizin kimilər hələ
Xalqa papış toxuyur.
Səndən fərqli olaraq
Sərçə canlı oxuyur.

# Ürəyimin quluyam



## Sənin məhəbbətin

Bu ürəklə, əzizim,
Ürəyimi almadın.
Gəlmə yuxularıma-
Xoş xatirəm olmadın.

Məhəbbətin ovcunda
Bir dəstə göy çiçəkdi.
Don vurmuş ürəyində
Hansı eşq bitəcəkdi?!

## Yadıq bir-birimizə

Oturmusan içimdə,
Ürəyimi didirsən.
Əllərim əllərində,
Gözümdə yol gedirsən.

Ürəyimin içində
Yadıq bir-birimizə.
Çıxardı məhvərindən
Yer olsa yerimizə.

Uzaqlardan boylanır
Üzümüzə bir işıq.
Görünür bir-biriyçün
Hələ doğulmamışıq.

## Bir gün gələcəkdir

Bir gün gələcəkdir- o günü istə,
Sənin hər kəlmənə “hə” deyəcəyəm.
Qəlbini incidən sözlərim üstdə
Bilmirəm özümə nə deyəcəyəm.

Ömürdən xatirə qalacaq yenə,
Gələcək saçının bəyaz illəri.
Sevdalı ürəyim deyəcək sənə
Nə tez solub getdi o yaz illəri?!

Bir ömür boyunca yansa bu ocaq
Şöləsi aləmə nur yayacaqdı.
Soyuq gözlərinə gülüş dolacaq-
Məhəbbət günəş tək parlayacaqdır.

## Sənsizlik

Qəlbimi dolu kimi döyür,
Susuz səhra kimi çəkir özünə
sənsizlik.
Qalıram səmadan yerə həsrət
çəkisiz əşya kimi.
Sanki tufan qopacaq,
küləkdən asılır canım,
qaranlığa düşürəm,
Günəş məni ovudur.
Bu bir sevgi odudur...

# Qaranlıq kölgə kimi...

Qaranlıq kölgə kimi gəldin ürəyimə,
Heç bilmədim bu necə sevgi, necə
istəkdi belə.
Yaşayacaqsan gizlicə, kimsəsiz,
sakit
ürəyimin küncündə.
Bir gün tənhalıqdan bezib
geri dönəcəksən, əzizim,
necə gəlmisən, elə.

## Məni mən tək duymadın

Xoşbəxtlikdən dəm vurub,
Divan tutdun özünə.
Danışdın yel apardı,
İnanmadım sözünə.

Söylədiyin sözlərdən
Sir-sifətin yanırdı.
Ev-eşiyin, ailən
Gözümdə canlanırdı.

Söz ürəkdən su içir,
Sözü ürək "sulayır".
Dedim ki, sus, danışma-
Dilin məni dalayır.

Görünən ürəyimi
Görməyinə qıymadın.
Baxsan da gözlərimə
Məni mən tək duymadın.

## Sənin xəyalınla

Bu gün xəyalınla gəldim üz-üzə,
Biz susduq, danışdıq əvvəlki kimi.
Qalxıb zirvələrə, enib yamaca
Küsüşüb-barışdıq əvvəlki kimi.

Qalmışdı havada həsrət əlimiz,
Demə yalan imiş bu get-gəlimiz.
Qəm-kədər üstündə gəldi ilimiz,
Dərd ilə yarışdıq əvvəlki kimi.

Təzəcə qonmuşdum ulduza, aya
Uçub yoxa çıxdı bu şirin röya.
Mənə elə gəldi qovuşduq guya,
Qaynadıq, qarışdıq əvvəlki kimi.

## Sənli dünya, mənli dünya

Sevən ürəyimi sənə vermişəm,
Qalmışam ürəksiz- canım can deyil.
Sanma ki, evinə qonaq gəlmişəm,
Dünya səni mənsiz yarıdan deyil.

Bu ömrü, bu günü qəmsiz yaşamaq,
Hər zaman kirpiyi nəmsiz yaşamaq,
Dünyanı dolanıb mənsiz yaşamaq
Xoşbəxtlik deyilən gözəl an deyil.

Eşqim ürəyində buzdu, qardısa,
Bu istək, bu sevgi sənə dardısa,
Gördüyün gözəllər əgər yardısa
Bu qismət, bu tale Tanrıdan deyil,
Dünya səni mənsiz yarıdan deyil.

## Ürəyimin quluyam

Ürəyimin quluyam-
O, məni çəkir dara.
Yapışıb əllərindən
Bilmirəm gedim hara.

Gecə-gündüz bilmədən
Ruhunu oxşayıram.
Sənsiz ötən günü də
Səninlə yaşayıram.

Qoşa ömür naminə
Ürəyimi bölürəm.
Sən "ölürəm" deyəndə
Səndən qabaq ölürəm.

## Əhsən sənə

Saflığına inanmadım,
nə də səadətinə,
ruhumdan çək əllərini.
Ehtiyacım yoxdu
saxta məhəbbətinə...
Yalançı dünyada
gülürsən
özünü aldada-aldada
güvənirsən
tapmadığın səadətə.
Zamanın çaylaq daşı,
afərin, əhsən sənə...

## Məni sevəcəksən

Bir günəş işığı tutub əlimdən,
Məni gözlərinə aparıb gedir.
Hissimi, duyğumu udub əlimdən,
Şirin sözlərimi qoparıb gedir.

Aparır yolunun yolçusu kimi,
Qoymayır özümə qayıdam bir də.
Eşqin ürəyimin ovçusu kimi
Salır can evimi tilsimə bir də.

Bir eşqi yaşadaq bircə balamla,
Yaş gəlib qaməti əyənə qədər.
Məni sevəcəksən bu ehtiramla
Dizlərin torpağa dəyənə qədər.

## Məni leysan gətirdi

İçin-için ağladım,
Həsrət üzümə güldü.
Yola salmaq istədim,
Bağrım başı söküldü.

Pərvanə şama sarı,
Mənim yönüm haradı?
Tale hər nəyi çalsa
Oynamalı havadı.

Qışın oğlan çağında
Fikrim çiçək bitirdi.
Gözüm çağlayıb coşdu-
Məni leysan gətirdi.

# MÜNDƏRİCAT

Həyatı müşahidələrin poetik ovqatı......................... 3

## HƏSRƏTİN SON MƏNZİLİ

Nə vaxtdı ................................................................ 15
Haraylayır Ana torpaq............................................. 16
Ziyarətə qəbrin uzaq................................................ 18
Ağdaban ağrıları ...................................................... 19
Vaxtın ölçüsü........................................................... 20
Böyümədim ............................................................. 21
Torpaq ..................................................................... 23
Kəlbəcəri düşünərkən.............................................. 24
Xəyalımdan ötən kənd............................................. 25
Getdi ........................................................................ 26
Xoş xəbər intizarında............................................... 27
Bir ovuc torpaq həsrəti ............................................ 28
Qarabağı düşünərkən............................................... 29
Yurd həsrətli anama................................................. 30
Ana .......................................................................... 31

Xocalı .................................................................... 32
Gəl gedək.................................................................. 33
Deyəsən .................................................................. 34
Qəlbi talan kimisən.................................................. 35
Dağların .................................................................. 33
Xoşbəxt ailənin sağlam faciəsi ................................ 37
Yurdsuz, yuvasız canım........................................... 38
Nə var ki ................................................................. 40
Zaman..................................................................... 41
Sarı gül ................................................................... 42
Bu ağrılar içində ...................................................... 43
Al canımı, ölüm, Allah ............................................. 44
Göydən asılı canım................................................... 45
Bakılı qız ................................................................. 46
Adamı dərd dirildir................................................... 48
Bir elan .................................................................... 49
Kəlbəcərə səmum küləkləri əsdi .............................. 51
Həsrətin son mənzili ................................................ 53
Salman..................................................................... 55
Gülməkdən ölən ölü ................................................ 56
Zahirən bənzədiyim adamlar ................................... 58
Söyüd ağacı ............................................................. 60

Həyat sözünü deyir ................................................ 61
Bu həyat, bu yol sənin ............................................ 63
Lövhə ..................................................................... 65
Deyirəm taledi ......................................................... 66
Bir nadana ............................................................... 67
Payız lövhəsi ........................................................... 68
Ay dünyadan bixəbərim .......................................... 69
Tənha çiçək .............................................................. 70
Gözdən itmək istəyirəm ........................................... 71
Üzüdönük dünyaya .................................................. 72
Üzümə tutub gedirəm .............................................. 73
"Həqiqət acı imiş..." ................................................ 74
Pəncərə .................................................................... 75
Payızdan başqa ........................................................ 76
Günəş elçisi ............................................................. 78
Duzsuz şor ............................................................... 80
Doğuluram, boğuluram ........................................... 81
Mən şair deyiləm ..................................................... 82
Bəyənmədik heyvanları ........................................... 83
Yaşayırıq ................................................................. 84
Natarazlıq ................................................................ 86
Dərdini danışan adam .............................................. 87

Uşaq olmağım gəlir ................................................ 88
A dünya .................................................................... 89
Yad tək düşürəm yada ............................................ 90
Qocalığa tələsmə ..................................................... 91
Dünya ....................................................................... 92
Qızıma ...................................................................... 93
Özünə bir nəzər sal .................................................. 94
Ulduz göylərdə olur ................................................. 95

## ЦRЯYİMİN QULUYAM

Sənin məhəbbətin ..................................................... 99
Yadıq bir-birimizə ................................................... 100
Bir gün gələcəkdir ................................................... 101
Sənsizlik .................................................................. 102
Qaranlıq kölgə kimi ................................................ 103
Məni mən tək duymadın .......................................... 104
Sənin xəyalınla ........................................................ 106
Sənli dünya, mənli dünya ....................................... 107
Ürəyimin quluyam ................................................... 108
Əhsən sənə ............................................................... 109
Məni sevəcəksən ...................................................... 110
Məni leysan gətirdi .................................................. 111

**«Elm və Təhsil»** няшриййатынын **direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

*Kompüter dizayneri:* **Zahid Məmmədov**
Техники редактор: Рювшаня Низамигызы

Yığılmağa verilmiş **25.06.2011.**
Çapa imzalanmış **16.09.2011.**
Şərti çap vərəqi **7,2.** Sifariş № **399.**
Kağız formatı **70x100 1/32.** Tiraj **200.**

Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
**E-mail: elm_ve_tehsil@box.az**
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.